*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 yanvar 2016-cı il № 2 (2017) Qiyməti 25 qəpik

# "Hərbi xidmət həm döyüş, həm də həyat məktəbidir"

***Doğma ordumuzun sıralarında xidmət edən müasir zəmanəmizin gəncləri xoşbəxtdirlər. Axı onların taleyinə Vətəndə xidmət etmək, öz ordumuzun əsgəri olmaq qisməti yazılıb. Bu, həqiqətən əsl xoşbəxtlikdir.***

Ümummilli lider Heydər Əliyev:

*Azərbaycanın bugünkü gəncləri xoşbəxtdirlər, çünki indi onlar özlərini müstəqil Azərbaycan dövlətinin gəncləri kimi hiss edirlər.*



Manqa komandiri çavuş Elnur Musayevlə birgə hərbi xidmətini başa vurmaqda olan iki əsgərimizlə üz-üzə əyləşmişik. Biri Hacıqabul rayonundan orduya çağırılmış Əlimurad Muradov, o birisi isə Ağcabədi rayonundan olan Alı Əliyevdir. Hər ikisinin baxışlarından nə qədər fərəhli, qürurlu olduqlarını hiss edirəm, bu da səbəbsiz deyil. Bu gənclərə doğma ordumuzun sıralarında xidmət etmək nəsib olub.

Ömrünün qiymətli bir hissəsini hərbi xidmətdə şərəflə başa vuran gənclərə eyni bir sualla müraciət edirəm: orduda xidmət sizə nə verdi? Və xahiş edirəm ki, bu sualı hər biri öz yanaşma tərzi ilə, səmimi fikirləri ilə cavablandırsın. Birinci hacıqabullu əsgərin söhbətindən qeydlər götürürəm.

- Minlərlə, on minlərlə Azərbaycan gənci kimi mən də özümü xoşbəxt sanıram ki, doğma ordumuzun sıralarında xidmət etmişəm, - deyir əsgər. - Birincisi, hərbi xidmətə gəlişim toy-bayram olub, doğmalarım, qohumlarım, dost-tanışlarım mənə çağırış vərəqi gələndə gözaydınlığı veriblər, atama-anama "Gözləriniz aydın olsun", deyiblər. Mən də başqaları kimi orduda xidmətə sıra hazırlığından başladım, şux addımlamağı, yerişdə, davranışda intizamlı olmağı öyrəndim. Sonra bizə döyüş silahlarının, hərbi texnikaların xüsusiyyətlərini öyrətdilər. Və təlim müddətindən sonra düşmənlə təmas xəttinə - Vətənimizin qorunduğu məkana göndərildik. Heç ilk dəfə döyüş növbəsini təhvil aldığım günü, saatı unudarammı? Hər şey ilk vərdişdən başladı və tədricən dözümlü, qorxmaz, iradəli olmağa vərdiş etdim. Bununla da hər şey adiləşdi. İndi arxaya, xidmət etdiyim günlərə nəzər yetirəndə, özümü nə qədər qürurlu sanıram, axı bu müddətdə torpaqlarımızın, yurdumuzun düşməndən qorunmasında, az da olsa, mənim də payım var.

Ağcabədili əsgər Alı Əliyev silahdaşının söhbətini davam etdirərək deyir:

- Əvvəlcə onu deyim ki, hərbi xidmətin son günlərində doğma qəzetimizin əməkdaşına müsahibə verməkdən, öz ürək sözlərimi bölüşməkdən olduqca məmnunam. Deyirlər ki, hərbi xidmət həm döyüş, həm də həyat məktəbidir. Doğrudan belədir, ordu mühiti bizə gələcəkdə müstəqil həyatda alnıaçıq yaşamağımız üçün, həmçinin, Vətənimizi qorumağın sirlərini öyrənməyimiz baxımından vacib vərdişlər aşılayıb. Cəbhə xəttində xidmət etmək isə adamı cəsur və iradəli olmağa alışdırır. Üzərimə düşən döyüş vəzifəsinin öhdəsindən daim bacarıqla gəlməyə çalışmışam. Vətənimizin keşiyində dayanmağa qadir olan bir hazırlıqlı döyüşçü kimi yetişməyimdə hərbi xidmətdə mənə silahdaş olan komandir və təcrübəli əsgər dostlarıma borcluyam. Yaşlı nəsillərin nümayəndələrindən fərqli olaraq doğma Silahlı Qüvvələrimizin sıralarında, öz xalqımızın övladları olan komandirlərimizin tabeliyində xidmət etmək qürurvericidir. Yadda qalan, bizim üçün tarixləşən günlərimiz çox olub. Aradan neçə ay keçməsinə baxmayaraq, hərbi andı qəbul etdiyimiz günün özünəxas təntənəsini unuda bilmirəm. Biz həmin gün söz verdik ki, Vətənimizi göz bəbəyi kimi qoruyacaq, komandirlərimizin əmr və tapşırıqlarını can-başla yerinə yetirəcəyik. Artıq andımıza sadiq olaraq hərbi xidmətimizi başa vururuq. Hərbi xidmət bir məktəb olaraq məni də hazırlıqlı döyüşçü, sabahın bir vətəndaşı kimi yetişdirib. İstənilən an Vətənimizin çağırışına cavab verməyə hazıram.

Bəli, ön xətdə düşmənlə üz-üzə mövqelərdə xidmət edərək mətinləşən, cəsurluq və qəhrəmanlıq məktəbinin sınaqlarında bərkimiş döyüşçü gənclərimizi dinlədim, dediklərini qələmə aldım. Əsgər formasında qürurlu Vətən övladlarının söhbətləri məni hədsiz sevindirdi. Bir daha yəqin etdim ki, gündən-günə qüdrətlənən ordumuz yüzlərlə, minlərlə gəncimizin həm vətənpərvər döyüşçü, həm də layiqli vətəndaş kimi yetişməsi üçün əsl məktəbdir.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

## Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz fəaliyyətlə məşğul olanlar inzibati, hüquqi məsuliyyət daşıyırlar

Ermənistan Azərbaycana qarşı müharibəyə başlamağa, gücdən istifadə edərək ölkəmizin ərazilərini işğal etməyə, zəbt olunmuş torpaqlarda kütləvi miqyasda etnik təmizləmə və digər ağır cinayətlər törətməyə görə məsuliyyət daşıyır. Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda və digər ərazilərində Ermənistan tərəfindən özünə tabe qondarma rejim yaradılıb.

Bu fikirləri Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətlə əlaqədar AZƏRTAC-ın sorğusunu cavablandıran Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

H.Hacıyev deyib: "Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn prinsipləri və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri əsasında həlli üzrə aparılan danışıqlara baxmayaraq, Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində xaricdən insanların gətirilməsi ilə süni məskunlaşdırma aparması, Azərbaycan xalqına məxsus maddi-mədəniyyət abidələrini məhv etməsi və onların mənşəyini dəyişdirməsi, qeyri-qanuni kommersiya fəaliyyətini həyata keçirməsi, azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz torpaqlarına qayıtmasına imkan verməməsi bir daha ona dəlalət edir ki, Ermənistanın məqsədi işğal olunmuş torpaqların ilhaq edilməsidir.

Beynəlxalq hüquqa görə gücdən istifadə edərək ərazi əldə olunması və ya dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin pozulması qəbuledilməzdir. Beynəlxalq hüququn imperativ normalarının kobud şəkildə pozulması nəticəsində yaranmış vəziyyət heç bir halda qanuni hesab edilə bilməz. Azərbaycan Respublikası işğal olunmuş əraziləri üzərində beynəlxalq səviyyədə tanınmış suverenliyə malik yeganə dövlətdir. Hər hansı digər hərbi işğal kimi, Ermənistanın da Azərbaycan ərazilərini işğal etməsi müvəqqəti xarakter daşıyır".

Mətbuat katibi qeyd edib ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və işğal edilmiş digər ərazilərində qanunsuz fəaliyyətlə əlaqədar Ermənistan, onun orqanları, hüquqi və fiziki şəxsləri və ya qondarma separatçı rejimlə hər hansı təmasa girən, kommersiya əlaqələri quran şəxslər və yaxud şirkətlər ölkəmizin ərazi bütövlüyünü və suverenliyini, müvafiq qanunlarını, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq inzibati, hüquqi məsuliyyət daşıyırlar. Beynəlxalq hüquqa görə işğal olunmuş ərazilərdə bu cür fəaliyyətin həyata keçirilməsi cinayət məsuliyyətini ehtiva edən hərbi cinayət kimi tövsif oluna bilər.

Korporativ sosial məsuliyyət və biznes etik qaydalarını da pozaraq işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyət göstərən əcnəbi hüquqi və fiziki şəxslər Ermənistanın Azərbaycana qarşı işğalçılıq, etnik təmizləmə siyasətinin qurbanı olmuş bir milyondan artıq azərbaycanlının öz torpaqlarına geri qayıda bilməməsi və onların mülkiyyət hüququ da daxil olmaqla, bütün digər fundamental hüquqlarının pozulmasının davam etməsinə xidmət edir.

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz iqtisadi və digər fəaliyyətlə bağlı Baş Prokurorluq tərəfindən İsveçrə vətəndaşı, "Franck Muller Group" şirkətinin həmtəsisçisi və baş icraçı direktoru Vartan Sirmakes barəsində cinayət işi açılıb. Eyni zamanda, Rusiya vətəndaşı Qerman Sterliqovun da Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz fəaliyyəti ilə əlaqədar cinayət işi açılıb və zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz iqtisadi fəaliyyət əməlləri hökumətlərarası birgə komissiyaların da gündəliyinə salınır və müvafiq dövlətlər qarşısında bu məsələ qaldırılır.

Beynəlxalq hüquqa əsasən, üzərinə düşən öhdəliklərə uyğun olaraq, bütün dövlətlər hüquqi və fiziki şəxsləri Azərbaycanın işğal olunmuş ərazilərinə səfərdən, bu ərazilərdə qanunsuz iqtisadi və digər fəaliyyətdən kənar tutmalı və orada hazırlanmış məhsulların ərazilərinə ixrac olunmasına imkan verməməlidirlər.

Görülmüş tədbirlər və məlumatlandırma işinin artırılması nəticəsində bir çox hüquqi şəxslərin işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyətinin qarşısı alınıb.

İşğal olunmuş suveren ərazilərində bu kimi qeyri-qanuni əməllərin qarşısının alınması üçün Azərbaycan Respublikası tərəfindən milli və beynəlxalq səviyyədə bütün hüquqi və siyasi imkanlardan istifadə ediləcək.

## Silahlı Qüvvələrdə Qanlı Yanvar faciəsinin ildönümü ilə əlaqədar anma tədbirləri keçiriləcək

***Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə təsdiq olunan "20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı"na əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrdə silsilə tədbirlərin icrası ilə əlaqədar planı təsdiq edib.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Ordusu, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində Qanlı Yanvar hadisələri ilə bağlı "dəyirmi masa"ların, konfrans, toplantı və xüsusi məşğələlərin təşkili, zabitlər evlərində faciəyə dair tamaşaların, bədii və sənədli filmlərin nümayiş etdirilməsi nəzərdə tutulub.

Keçirilən tədbirlərdə şəhid olanların ailə üzvləri, hadisələrin iştirakçıları ilə şəxsi heyətin görüşlərinin təşkili, həmçinin, Vətənimizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatlarını qurban verənlərin xatirəsinə ucaldılmış abidələrin ziyarət olunması planlaşdırılıb.

## Şagirdlərə milli qəhrəmanlarımızın şücaətləri haqqında məlumat verilib

***Nəsimi rayonundakı 8 nömrəli tam orta məktəbin təşəbbüsü əsasında yuxarı sinif şagirdləri ilə vətənpərvərlik mövzusunda görüş keçirilib.***

Beynəlmiləlçi Əlil Döyüşçülər Fondundan AZƏRTAC-a bildiriblər ki, bir qrup müharibə veteranının iştirakı ilə keçirilən görüşə ictimai qurumların və veteran təşkilatlarının nümayəndələri, məktəbin müəllimləri və şagirdləri qatılıblar.

"20 Yanvar" Cəmiyyəti İctimai Birliyinin sədr müavini, müharibə veteranı Mustafa Əliyev görüşdə çıxış edərək Qanlı Yanvar hadisələrindən danışıb.

Fondun prezidenti Sərraf Orucov Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranması tarixi, ordu quruculuğu haqqında şagirdlərə məlumat verib. Qeyd edilib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa bir zamanda NATO standartlarına uyğun formalaşıb və Cənubi Qafqaz ölkələri arasında ən güclü orduya çevrilib. Silahlı Qüvvələrimizin maddı-texniki bazasının möhkəmləndirilməsi, əsgər və zabit heyətinin mənəvi-psixoloji durumunun yaxşılaşdırılması, döyüş əhval-ruhiyyəsinin yüksəldilməsi sahəsində ciddi işlər görülüb.

Tədbirdə çıxış edən digər müharibə veteranları Qarabağ müharibəsində milli qəhrəmanlarımızın göstərdikləri şücaətlərdən bəhs ediblər. Onlar işğal altındakı torpaqlarımızın tezliklə azad olunacağına inandıqlarını söyləyiblər.

Sonra şagirdlərin və müəllimlərin sualları cavablandırılıb.

Şagirdlər Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun göstərdiyi şücaətlər barədə qürurla danışıb, məktəblilərin hərbi hissələrdə əsgərlərlə daha çox görüşünün keçirilməsini arzulayıblar.

## Özbəkistanın "Sharh.uz" portalı Dağlıq Qarabağ münaqişəsindən yazır

Özbəkistanın "Sharh.uz" portalında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən məqalə yayılıb.

Özbək dilində yayılan məqalədə münaqişənin yaranma tarixi haqqında məlumat verilir, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinin 20 faizini işğal etdiyi diqqətə çatdırılır. Münaqişənin dinc yolla həlli istiqamətində danışıqların davam etdirildiyi bildirilir. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin təşəbbüsü ilə ötən il dekabrın 19-da Berndə Azərbaycan və Ermənistan prezidentləri arasında görüş keçirildiyi xatırlanır.

Müəllif Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal geri çəkilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən dörd qətnamə qəbul olunduğunu, lakin bu sənədlərə Ermənistanın məhəl qoymadığını vurğulayır.

Məqalədə ATƏT-in Minsk Qrupunun münaqişənin həlli istiqamətində fəaliyyətinin indiyədək heç bir nəticə vermədiyi qeyd edilir.

**AZƏRTAC**

*Ön xətdən reportaj*

# Düşmən təxribatlarının qarşısı qətiyyətlə alınır

***Səngərləri gəzib leytenant Ələkbər Ələkbərlinin komandirliyi altında ön xətdə torpaqlarımıza keşik çəkən əsgərlərlə söhbət etdik. Onların xidmətlərini yaxından izlədik. Sonra sağollaşıb ayrıldıq. Kapitan Nahid Rzayevlə birlikdə digər səngərlərə doğru tələsdik. Yollarımız dağların ətəyindən keçirdi. Hiss edirəm ki, zabit bu yerlərin hər qarışına, hər addımına bələddir. Buna görə də avtomobili çətinlik çəkmədən idarə edir.***





- Taborumuzun şəxsi heyəti torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanır, - deyir kapitan. - Əsgərlərimiz daim ermənilərin mövqelərini nəzarətdə saxlayır. Düşmən son günlər atəşkəs rejimini pozmağa daha çox cəhd göstərir. Cəsur zabit və əsgərlərimiz isə işğalçıların bütün cəhdlərinin qarşısını qətiyyətlə alırlar. Düşmən sərrast atəş zərbələri ilə susdurulur.

Ordumuzun daim artan gücü, qüdrəti barədə söhbət edə-edə növbəti səngərlərimizə gəlib çatdıq. Daş pilləkənlərlə yuxarı mövqelərimizə qalxdıq.

Əsgərlərin nəzərləri düşmən mövqelərinə dikilmişdi. Onlar məsuliyyətlə ermənilərin bütün hərəkətlərini izləyirlər.

- Üzərimizə böyük vəzifələr düşür, - deyə əsgər Murad Zəkiyev bizimlə söhbətə başladı. - Ən başlıca vəzifəmiz torpaqlarımızı erməni işğalçılarından azad etməkdir. Düşmən atəşkəs rejimini pozmağa cəhd göstərən kimi dərhal ağır atəş zərbələri ilə susdururuq. Hər dəfə ermənilər ağır itki verərək geri çəkilirlər. Döyüş hazırlığımız yüksəkdir. Bu gün torpaqlarımızın keşiyində dayanmaqdan qürur duyuram. Müşahidə məntəqəsindən işğal altında qalmış ərazilərimizə baxdıqca dərindən köks ötürüb deyirəm ki, biz nəyin bahasına olur-sa-olsun, torpaqlarımızı erməni işğalçılarından azad edəcəyik. Bu, bizim qarşımızda dayanan ən ümdə vəzifədir.



- Bu gün yurdumuza keşik çəkən hər bir əsgərin ürəyi Vətən eşqi ilə döyünür, - deyə ön mövqedə xidmət edən əsgər Nurlan Salamov söhbətimizə qoşuldu. - Artıq düşmən hər addımda qarşısında güclü, qüdrətli bir ordunun dayandığını hiss edir. Ordumuzun gücünün artmasından düşmən sarsılıb. Hiss edir ki, Azərbaycan əsgəri qarşısında duruş gətirə bilməyib ərazilərimizi tərk etməli olacaq. Qüdrətli ordumuzla fəxr edirəm.

Ön xətdə dayanan əsgərlərlə söhbətimiz başa çatır. Əsgərlərin çöhrəsindən fərəh hissi duyulur. Onlar cəbhə bölgəsində xidmət etməkdən, Vətənə əsgər olmaqdan qürur duyurlar.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***7 yanvar 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 119 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Novruzlu, Cəvahirli, Kəngərli, Sarıcalı, Şuraabad, Yusifcanlı, Mərzili, Qaraqaşlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 125 dəfə atəş zərbəsi endirib.

***8 yanvar 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 117 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Berkaber kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əlibəyli, Koxanəbi, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Çaylı, Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Novruzlu, Cəvahirli, Kəngərli, Sarıcalı, Şuraabad, Yusifcanlı, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 120 dəfə atəş zərbəsi endirib.

# Əfqanıstandakı sülhməramlılarımızın iki zabiti Müdafiə nazirinin əmrinə əsasən mükafatlandırılıb

***NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasında iştirak edən Silahlı Qüvvələrimizin sülhməramlı kontingentinin tərkibində xidmət keçən iki zabitimiz Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən mükafatlandırılıb.***





Tibb xidməti kapitanı Abdullayev Şükür Rüstəm oğlu və tibb xidməti kapitanı Əkbərov Gündüz Famil oğlu 2015-ci il dekabrın 11-də İspaniya Krallığının Əfqanıstandakı səfirliyinə qarşı törədilmiş terror aktı zamanı xəsarət almış insanlara ixtisaslı tibbi yardımın göstərilməsində peşəkarlıq nümayiş etdiriblər.

İnsan tələfatı ilə nəticələnən terror aktı nəticəsində yaralıların bir qismi zabitlərimizin xidmət etdiyi tibb məntəqəsinə təxliyyə edilib. Hərbi həkimlərimiz ağır yaralılara operativ tibbi yardım göstərməklə yanaşı, uğurlu cərrahi əməliyyat edərək əfqan vətəndaşının həyatını xilas etməyə nail olublar.

Hərbi qulluqçularımızın çətin və ağır vəziyyətdə göstərdikləri peşəkarlıq NATO-nun Əfqanıstandakı Türk Silahlı Qüvvələri komandanlığı tərəfindən də yüksək qiymətləndirilib. Hər iki zabitimizə Türk Tapşırıq Qüvvələri Komandanı diviziya generalı Cahit Bakırın imzası ilə də təşəkkür məktubu təqdim olunub.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Sülhməramlılarımızın bir qrupu Əfqanıstana yola salınıb

***NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 42 nəfərdən ibarət qrupu plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yola salınıb.***



Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 20 noyabr 2002-ci il tarixdən başlayıb.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 94 nəfərdən ibarət hərbi qulluqçusu, 2 hərbi həkimi və 2 mühəndis-istehkam ixtisası üzrə zabiti Əfqanıstandakı missiyada iştirak edir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna 70 milyon manata yaxın vəsait yığılıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna bu il yanvarın 1-dək 69 milyon 847 min 993,83 manat, 211 min 791,88 ABŞ dolları və 1793,69 avro vəsait yığılıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli fərmanı ilə yaradılıb.

Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılmışdır. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməkliyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan olunmamış digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin, hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# Hər səngər alınmaz qala, silinməz tarixdi

***Quş qanadsız, insan Vətənsiz olmaz, - deyiblər. Biz də ulularımızın yadigar qoyduğu bu məmləkəti yadellilərdən qanımız, canımız bahasına qorumaqla, Vətənimizi xain əllərdən xilas edə bilərik. Ermənilərin ötən əsrin 90-cı illərindən başlayan Azərbaycana qarşı ərazi iddiaları müharibəyə gətirib çıxartdı. Qarabağda və Ermənistanla sərhəd boyu amansız döyüşlər getdi. Müharibənin ilkin mərhələsində döyüşən ordumuz böyük qələbələrə imza atsa da, sonda düşmən öz havadarlarının dəstəyi ilə Dağlıq Qarabağı və daha yeddi rayonu işğal edə bildi. 20 ildən artıq davam edən atəşkəs dövründə düşmənlə təmas xəttində dəfələrlə ağır mövqe döyüşləri gedib. Həmin gərginlik ötən ilin avqust ayından bu yana daha ciddi xarakter alıb və elə gün yoxdur ki, cəbhə xəttində atəşkəs pozulmasın. Təbii ki, silahlar işə düşən yerdə insan itkisi də qaçılmazdı.***

Bu günlərdə ezamiyyətdə olan zaman düşmənin açdığı atəşdən ağır yaralanaraq hospitalda dünyasını dəyişən baş leytenant Abdulla Mollayevin silahdaşları tərəfindən ehtiramla yad edildiyini gördüm. Qədirbilən döyüşçü dostlar illər ötsə belə, nə Abdullanı, nə də başqa şəhidləri unutmayacaqlar.

Yol yoldaşım kapitan Vaqif Bayramov şəhid zabiti yaxından tanıdığını, onu unuda bilmədiyini deyir. Ancaq bu atışmalar nəticəsində düşmən qat-qat artıq itkiylə üzləşib. Zabit əlavə etdi ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun cəbhə bölgəsinə tez-tez səfər etməsi ön xətdə böyük ruh yüksəkliyi yaradır. Düşmənə hər an layiqli cavab zərbələri endirməklə fərqlənən hərbi qulluqçuları yerindəcə mükafatlandıran ordu rəhbərliyinin qəti tapşırığı da yalnız düşmənə qarşı amansız olmaq və onu daha ağır itkilərə məruz qoymaq tələbidir.



Mövqelərə aparan yol bir qədər uzun olduğundan zabit həmkarım Vaqif Bayramovla daha yaxından tanış olmağa imkan yaranır. Onun necə də böyük ürək sahibi olduğunu dinlədikcə öyrənirəm. Naftalan şəhərində anadan olan Vaqif deyir ki, onun böyük qardaşı Mehman Bayramov o zaman Sovet ordusunda desant polkunda xidmət edib. 1992-ci ilin yaz aylarında Ağcakənd ətrafında qızğın döyüşlər başlayanda Mehman könüllü döyüşə gedib. Həmin il Ağcakəndin düşməndən azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub. Bu gün Naftalan şəhərində şəhid Mehman Bayramovun yaşadığı binanın yanından ötən hər kəs ixtiyarsız olaraq bir anlığa ayaq saxlayır, fasaddakı baralyefə diqqət yetirib yoluna davam edir.

Müsahibim danışdıqca məlum oldu ki, hələ kiçik yaşlarından Vətəni sevən mərd oğul olub. Onun olduqca ağrı-acılarla dolu həyat yolundan bəhs etmədən keçinmək mümkün deyil. Qardaşı şəhid olanda on üç yaşı olub. Düşməndən qisas almaq üçün vaxtilə qardaşının döyüşdüyü tabora gedib. Onun hələ balaca olduğunu və döyüşə getməyə yaşı çatmadığını bildirsələr də, Vaqifi inadından döndərə bilmirlər. - Heç olmasa, döyüşçülərə sursat daşımaqda kömək etməyə gücüm çatar ki, - deyib qardaşının döyüşçü yoldaşları ilə gələrindən alırdılar. O zaman balaca döyüşçünü yüksək çinli zabitlər də tanıyırdı. Hətta bir dəfə Ağdərədə general-polkovnik Nəcməddin Sadıkov onu yanına çağırıb xatirə olaraq fotoaparat hədiyyə edib. Baş Qərargah rəisinin av-



Ağdərəyə qədər gedib çıxır. Vaqifi o zaman valideynləri evdə saxlaya bilmirmiş. Həmişə sorağını döyüş böl-toqrafı olan fotoaparatı bu günə qədər qiymətli hədiyyə kimi saxladığını bildirdi. Vaqif hərbi peşəyə marağının məhz həmin dövrdən yarandığını söylədi.

### Müdafiə naziri bölüyün dayaq məntəqəsində olub

...Bir qədər dərə yuxarı yolla gəlib yenicə tikilib istifadəyə verilmiş qazmaya çatdıq. Burada zabitlərdən Xəyyam Quliyev, Vaqif Abdullayev və Rüfət Quliyevlə görüşdük. Onların nəzarətində olan postlarda döyüş növbətçiliyi yetərincə təşkil olunub. Cəbhənin müxtəlif istiqamətlərində postlarımızı bütün gecə atıcı silahlardan düşmənin atəşə tutduğunu bildirdilər. Döyüşçülərin sayıqlığı və səlis cavab atəşi bu dəfə də düşmənin susmasına səbəb olub.

Burada əsgərlərə yaradılan məişət şəraiti ilə yaxından tanış oluruq. Düşmənlə ara məsafəsi yaxın olduğundan döyüş növbətçiliyinin aparılması üçün lazım olan nə varsa, o da təşkil olunub. Ən vacib olanı döyüşçülərə gecə növbəsindən sonra normal istirahətin təşkil edilməsidir. Soyuq qış aylarında qazmalarda hərbçilərin istiliklə təmin edilməsi ən vacib şərtlərdəndir ki, bu sahədə də heç bir narahatlıq yoxdur. Baş leytenant Vaqif Abdullayev deyir ki, onun başlıca məqsədi komandiri olduğu bölmənin dayaq məntəqəsinin müdafiəsini möhkəm təşkil etməkdir. Bunun üçün o, gecə-gündüz silahdaşları ilə çalışır.

Bir neçə gün öncə Müdafiə naziri general-polkovnik Zakir Həsənov baş leytenant V.Abdullayevin komandiri olduğu bölmənin dayaq məntəqəsində olub. Burada əsgərlərə yaradılan şəraitdən və onların xidmətindən razı qalan ordu rəhbəri döyüşdə fərqlənən hərbi qulluqçuları mükafatlandırıb. Baş leytenant V.Abdullaev də mükafat alanlardandır. Müdafiə nazirinin bağışladığı saat onun üçün olduqca dəyərlidir.

### Hədəf yalnız qarşıdakı düşməndir

Daha sonra döyüş postuna gəldik. Burada növbə çəkən əsgərlərin hər birinin bir və bir neçə əsas və ehtiyat səngəri var. Onlar həmlə edən düşmənə cavab verirlər. Davamlı atəş nöqtələri də olmaqla hər bir əsgərin öz atəş sektoru döyüş aparmaq üçün tam hazır vəziyyətdə idi. Hətta komandir də biz mövqedə olan zaman postun hazırlığını yoxlamaq məqsədilə "Döyüşə!" komandasını verdi. Əsgərlər qısa müddətdə tam döyüş komplekti ilə səngərlərdə öz atəş nöqtələrinə yetişdilər. Onlardan Aqil Əsgərov, Orxan Quliyev, Əhəd Kərimov, Asim Mütəllimov manqa komandiri əsgər Fəqani Mahmudovun komandası altında müdafiə mövqeyində öz yerlərini tutdular.

Ön xətdə döyüş növbəsində olan əsgərlərlə qısa tanış oluram. Onların hər biri ölkəmizin ayrı-ayrı bölgəsindəndir. Xidmətə gəldikləri dövrlər də müxtəlifdir. Buna baxmayaraq onlar bir-birilərinə arxa-dayaq olmaqla bir məqsəd, amal uğrunda vuruşduqlarını bildirdilər. Hədəf yalnız qarşıdakı düşmən olduğunu söylədilər.

Əsgərlərin döyüş və mənəvi hazırlığının yüksək səviyyədə olduğunu onların əhval-ruhiyyəsindən aydın görmək olurdu. Həmin gün havada sıx duman var idi. Bu səbəbdən qarşıdakı düşmən mövqelərini yaxşı görmək mümkün olmasa da, bu cür hava şəraitində döyüşçülər müşahidəni daha da gücləndirmişdilər. Bu isə xidmətin daha yüksək təşkilindən xəbər verirdi.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# “Açıq qapı” günü xalq ilə ordu birliyinin əsl təntənəsinə çevrilib

***Silahlı Qüvvələri haqlı olaraq xalqın övladı hesab edirlər. El arasında çoxdan yaşamaq hüququ qazanmış bu məşhur deyim ötən ilin son günündə bir daha öz təsdiqini tapdı. Dekabrın 31-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, Silahlı Qüvvələrimizin bütün hərbi hissələrində "Açıq qapı" günü keçirildi.***



Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə keçirilən "Açıq qapı" günü hava hücumundan müdafiə təyinatlı "N" hərbi hissəsində də böyük coşqu ilə qeyd edildi.

Bakının Pirallahı rayonundan qonaq gəlmiş ictimaiyyət nümayəndələrinin, əsgər valideynlərinin və şəxsi heyətin böyük bir qrupunun qatıldığı bayram tədbirini giriş sözü ilə açan polkovnik C.Seyfullayev bildirdi ki, Müdafiə nazirinin tapşırığına əsasən, bütün hərbi hissələrdə "Açıq qapı" gününün əsl bayram təntənəsi ilə keçirilməsi artıq Silahlı Qüvvələrimizdə dəyərli bir ənənəyə çevrilib.

Polkovnikin sözlərinə görə, son illər dövlətimiz və ordu rəhbərliyi tərəfindən hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər nəticə etibarilə Azərbaycanın müdafiə qabiliyyətinin daha da möhkəmlənməsinə zəmin yaradıb. "Artıq böyük qürur hissi ilə qeyd etməyə dəyər ki, hərbi qüdrətinə görə regionda ən qabaqcıl ordu olan Azərbaycan Silahlı Qüvvələri istənilən hərbi tapşırığın öhdəsindən gəlməyə qadirdir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bayram tədbirində çıxışında göstərildiyi kimi, işğalçı dövlət məğlubiyyətə düçar olacağını artıq anlayır və buna görə də sülh yolu ilə torpaqların geri qaytarılmasına razılıq verməlidir".

Sonra ictimaiyyət nümayəndələri adından söz alan Pirallahı rayon Ağsaqqallar Şurasının sədri Fazil Məmmədov əsgər və zabitləri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik etdi. Tez-tez hərbi hissəyə əsgərlərin görüşünə gəldiyini deyən el ağsaqqalı bildirdi ki, ordu rəhbərliyi tərəfindən atılan məqsədyönlü addımlar, keçirilən irimiqyaslı təlimlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır və hamıda ordunun gücünə inam aşılayır.

Pirallahı rayon İcra Hakimiyyətinin şöbə müdiri Manaf Manafov da ordunun şəxsi heyəti ilə ictimaiyyətin sıx əlaqələrinin yaranmasında belə tədbirlərin əhəmiyyətini vurğuladı və qeyd etdi ki, "Açıq qapı" gününün belə xoş günlərə təsadüf etməsi təqdirəlayiqdir.

Tədbir iştirakçıları əsgərlərə verilən ərzaq nümunələrinə, həmçinin, geyim dəstlərinə baxış keçirdilər. Cavabdeh zabitlər tərəfindən son illərin yenilikləri barədə ətraflı məlumat verildi.

Əsgər yataqxanasında olan ictimaiyyət nümayəndələri və valideynlər yaradılan şəraitə görə ölkə rəhbərliyinə və Müdafiə Nazirliyinin ünvanına minnətdarlıqlarını bildirdilər.



Nahar fasiləsində qonaqlar əsgərlərlə birgə nahar etdilər.

İstedadlı ifaçı Dilavər Məmmədovun rəhbərliyi ilə "Xatirə" instrumental ansamblı əsgərlərə bayram ovqatı aşıladı. Şaxta baba və Qar qızın tədbirə qatılması isə həm əsgərlərin, həm də hərbçı övladlarının dərin rəğbətinə səbəb oldu.



* * *

Ölkəmizdə və onun hüdudlarından xeyli kənarda Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd edildiyi eyni vaxtda "N" hərbi hissəsində də ikiqat bayram ovqatı vardı. Azərbaycanın müxtəlif bölgələrindən əsgər valideynləri, ictimai təşkilatların nümayəndələri nəzarət-buraxılış məntəqəsinin qarşısına toplaşmışdılar. Bir qədər keçmiş qonaqlar hərbi hissənin meydançasına dəvət edildilər və tribunanın yanında öz yerlərini tutdular.

Hərbi hissənin ərazisi bayramsayağı bəzədilmişdi. Səliqəli və şux duruşlu hərbçilər meydançada tribuna ilə üzbəüz səf-səf dayanmışdılar. Onların arxasında isə cərgə ilə düzülmüş stolların üstünə hərbçilərimizin sərəncamında olan silah və sursatlar, onların taktiki-texniki xassələri barəsində məlumatlar yerləşdirilmişdi.

Əvvəlcə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə və Yeni il bayramına həsr edilmiş tədbir keçirildi.

"Farağat!" komandası verilən kimi bütün meydançaya bir sakitlik çökdü. Hərbi hissənin qərargah rəisi komandirə məruzə etdi. Hərbi hissə komandiri şəxsi heyəti bayramlar münasibətilə salamladıqdan sonra tədbir açıq elan edildi.

Bütün belə tədbirlərdə olduğu kimi, öncə hər bir vətənpərvər azərbaycanlının ayaq üstə fəxrlə dinlədiyi Dövlət himnimiz səsləndi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş soydaşlarımızın ruhu bir dəqiqəlik sükutla yad edildi.

Polkovnik Həbib Məmmədov Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini hərbi hissənin şəxsi heyətinə çatdırdı. Sonra hərbi birlik komandirinin təbriki oxundu.

Zabit Eldəniz İsmayılov çıxışında ölkəmizdə dövlət rəhbərliyi səviyyəsində Dünya azərbaycanlılarının həmrəyliyinə verilən önəmdən danışdı. Bildirdi ki, Dünya azərbaycanlılarının birliyi, həmrəyliyi ideyası ümummilli lider Heydər Əliyevin xalqımız və Vətənimiz qarşısında göstərdiyi tarixi xidmətlərindən biridir.

Zabit Ruslan Ağasıyev çıxışında qeyd etdi ki, ümumxalq mənafelərimizin həyata keçirilməsi naminə soydaşlarımızın sıx birləşməsinə xidmət edən azərbaycançılıq ideyası məhz müstəqillik dövründə reallığa çevrilib. "Ulu öndər böyük inamla dünya azərbaycanlılarına bir amal uğrunda həmrəy olmağın vacibliyini tövsiyə edirdi. Ona görə də dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımız dekabrın 31-də mənən bir araya gəlir və vahid azərbaycançılıq ideyası ətrafında birliyimizi nümayiş etdirirlər".

Çıxışlardan sonra Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə hərbi hissə komandirinin əmri oxundu və şəxsi heyət mükafatlandırıldı. Nümunəvi xidmətilə seçilən əsgərlərin valideynlərinə təşəkkür məktubu ünvanlandı, digərləri təşəkkürə, fəxri fərmana, qısamüddətli məzuniyyətə layiq görüldülər.

Nümunəvi xidmətilə hərbi hissənin uğurlarında pay sahibi olan hərbi qulluqçulardan Cavad Həşimov, Tərlan Mövlanov, Surxay Əsgərov, Firdovsi Bəyov, Eldəniz İsmayılov, Həzrət Ələkbərov, Zaur Qafarov, Ramil İsgəndərov, Müzəffər Həsənov, Hikmət Atakişiyev fərqləndirilənlər arasında idilər.

Hərbi hissənin kəşfiyyat bölməsinin döyüşçüləri tərəfindən hazırlanmış səhnəcik meydançaya toplaşanların dərin marağına səbəb oldu. Onların yüksək idmançı və döyüşçü keyfiyyətləri nümayiş etdirərək, düşmən ölkənin atributlarını məhv etməsi alqışlarla qarşılandı.

Mərasim başa çatdıqdan sonra "Açıq qapı" gününə gəlmiş valideyn və qonaqlara hərbi hissənin yaranma tarixi, keçdiyi döyüş yolu və son illərdə dövlət rəhbərliyinin diqqət və qayğısı ilə Silahlı Qüvvələrimizdə aparılan islahatlar barədə məlumat verildi.

Bölmələrin sərəncamında olan atıcı silahlar nümayiş etdirildi. Hərbi qulluqçular həmin müasir silahların üstün cəhətləri barədə qonaqları məlumatlandırdılar.

Təbii ki, əsgərlərin valideynlərini, yaxınlarını, qonaqları şəxsi heyətin məişət şəraiti, gərgin xidmət vaxtından sonra istirahəti, qidalanması xüsusilə maraqlandırırdı. Əsgər yataqxanası və yeməkxana həmin gün qonaqların üzünə açıq idi. Təmiz və səliqəli əsgər çarpayılarına diqqət yetirən ata və analar övladları üçün yaradılmış şəraitdən yetərincə razı qaldılar.



Hərbi hissəyə dəvət edilmiş bədii özfəaliyyət ansamblının konserti hamının ürəyindən xəbər verdi. Müğənnilər tərəfindən sevilən mahnılarımız şövqlə ifa olundu. Əsgər və qonaqlar geniş meydançada bənzərsiz Azərbaycan təranələri altında əsl bayram ovqatı ilə qol qaldırıb rəqs etdilər.



Qonaqların hərbi hissə komandirilə görüşü də "Açıq qapı" gününün maraqlı məqamlarından idi. Təklif və ürək sözlərini komandirlə bölüşmək imkanının yaradılması da onların ürəyindən oldu.

İctimaiyyət nümayəndələri və valideynlər, həmçinin, hərbi hissənin yeməkxanasında döyüşçülərlə birlikdə nahar etdilər. Biz onların bir neçəsindən əsgər yeməyinin keyfiyyəti barədə xəbər aldıqda hamısı gördüklərindən çox razı qaldıqlarını söylədi. Əlbəttə, yüz dəfə eşitməkdənsə, bir dəfə görmək daha yaxşıdır.

Doğrudan da, "Açıq qapı" günü əslində ordu ilə cəmiyyət arasında sıx əlaqələrin yaranmasına, Silahlı Qüvvələrimizin ölkə vətəndaşları arasında nüfuzunun daha da möhkəmlənməsinə, hərbi hissələrimizdə baş verən müsbət dəyişikliklərin geniş təbliğinə hesablanmış tədbirdir. Necə deyərlər, həm göstərməyə, həm də iftixar hissi keçirməyə əsas var.

* * *

"Açıq qapı" günündə hava mülayim idi. Tədbirə gələnlər hərbi texnika və silah-sursata böyük maraqla baxırdılar. Hiss olunurdu ki, hərbi hissənin komandanlığı bu mühüm tədbirə məsuliyyətlə hazırlaşıb.

Nəzarət-buraxılış məntəqəsindən daxil olan kimi ərazidəki səliqə-sahman diqqətimizi cəlb etdi. Nümayiş etdiriləcək döyüş texnikası və silah-sursatlar bir xətt boyunca düzülmüşdü. Silah və texnika haqqında qonaqlara geniş məlumat vermək üçün kiçik bölmələr yaradılmışdı. Hər bir texnikanın taktiki-texniki xüsusiyyətləri barədə geniş məlumat xüsusi hazırlanmış lövhələrdə əks olunmuşdu. Tədbir iştirakçıları silahlar haqqında geniş məlumat aldılar.

- "Açıq qapı" mərasimində iştirak edən valideynlər və qonaqlar üçün hərbi hissəmizdə hərtərəfli şərait yaradılıb, - deyə polkovnik-leytenant Şükür Həmidov bizimlə söhbətə başladı. - Mərasimin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri işlər görülüb. Səhər ertədən müşahidə aparıram. Valideynlər övladlarının xidmət etdikləri kazarmalarla, yeməkxana ilə, ərazi ilə tanış olmaq üçün hərbi hissəyə həvəslə gəlirlər. Əminəm ki, onlar buranı razılıq hissləri ilə tərk edəcəklər. Və övladlarından arxayın olacaqlar.

Valideynlər, qonaqlar silah və hərbi texnikaya həvəslə baxır, demək olar, hər şeylə, yaxından maraqlanır, zabitlər də onlara məlumat verirdilər. Mərasimə yeniyetmələr də qatılmışdılar. Onlar döyüş texnikasına baxmağa xüsusi maraq göstərirdilər.

Valideynlərdən Mübariz Fətəliyev, Gözəl Fətəliyeva, Vüqar Cəlilov və Könül Cəlilova ilə həmsöhbət oldum. Onların ürək sözlərini həm dinləmək, həm də yazmaq xoş oldu. Valideynlər hərbi hissədə yaradılan şəraitdən razı qaldıqlarını bildirdilər.

- Qardaşım İlham dörd aydır ki, bu hərbi hissədə xidmət edir, - deyə Adil Fətəliyev söhbətə başladı. - O hərbi hissələrindəki döyüş texnikasından, silahlardan həmişə həvəslə danışırdı. "Açıq qapı" mərasiminin keçirilməsi ürəyimcə oldu. Gəlib həm qardaşımı gördüm, həm də onun xidmət etdiyi hərbi hissə ilə yaxından tanış oldum. Döyüş texnikasına, silahlara baxdım. Hətta silahların bir neçəsinin atış qaydalarını öyrənməyə çalışdım. Bu günü həmişə xoş təəssüratlarla xatırlayacağam. Bir müddətdən sonra mən də əynimə hərbi forma geyinib Vətənə əsgər olacağam.

Valideynlər, qonaqlar nahar vaxtı əsgər yeməkxanasına da baş çəkdilər. İçəri daxil olan kimi dadlı yeməklərin qoxusu bizə də xoş gəldi. Əsgərlər mərasimə qatılmış vaildeynləri ilə bərabər nahar etdilər. Bir anlıq kənardan onları müşahidə etdik. "Açıq qapı" mərasimi hərbi hissəyə gələn hər kəsə böyük sevinc bəxş etmişdi.

***Yeni il ərəfəsində və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Silahlı Qüvvələrdə keçirilən "Açıq qapı" günü ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb. Bütün hərbi hissə və birləşmələrdə valideynlər, ictimaiyyət nümayəndələri son illər respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində həyata keçirilən məqsədyönlü siyasətin nəticələri ilə yaxından tanış olmaq imkanı əldə ediblər. Onlar ordu quruculuğunda həyata keçirilən tədbirlərdən qürur hissi keçirdiklərini ifadə ediblər.***



**Namiq İsmayılov** - Şəki rayonu, Dərəcənnət kənd sakini:

- Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır. Bu gün ordumuzun inkişafının, yüksək təminatının şahidi oldum. Oğlum Röyal bu hərbi hissədə xidmətdədir. Həmişə bildirib ki, heç bir çətinliyi yoxdur. Bir əsgər valideyni kimi gördüklərimdən qürur hissi keçirirəm. Müdafiə nazirinin bizimlə səmimi söhbəti və əsgərlərlə birgə nahar etməsi çox xoşuma gəldi. Orduya göstərilən diqqət və qayğıya görə ölkə rəhbərinə, Müdafiə nazirinə minnətdarlığımı bildirirəm.



**Nuriyyə Qasımova** Ağdam rayonundandır, Bakı şəhərində məskunlaşıb. Övladı Mircəfər bir neçə aydır ki, hərbi xidmətdədir. Əsgər anası ürək sözlərini belə ifadə etdi:

- Oğlumun Vətən müdafiəçiləri sırasında olmağından qürur hissi keçirirəm. Azərbaycan əsgəri kimi şərəfli ad daşımaqdan fərəh duyan oğlum həyat, mətinlik, kişilik məktəbi sayılan ordu həyatının ilk günlərindən hərbi anda sədaqətli olacağını, Vətənə, xalqa şərəflə xidmət edəcəyini bildirib. Övladlarımızın nümunəvi xidməti üçün yaradılan şəraitə görə Prezidentimizə, Müdafiə nazirinə dönə-dönə minnətdaram.

Anaların ən böyük istəyi, arzusu tezliklə torpaqlarımızın işğaldan azad edilməsidir. Ordumuzun möhkəmləndirilməsi göstərir ki, dövlət rəhbərliyi bu sahədə məqsədyönlü fəaliyyət göstərir. İnanıram ki, Vətənimizin ərazi bütövlüyü bərpa olunacaq, tezliklə doğma torpaqlarımıza qayıdacağıq.



**Cabbar Süleymanov** Bakı şəhəri, Suraxanı rayonu, Qaraçuxur qəsəbə sakini:

- Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində "Açıq qapı" günü tədbiri uzun müddət yaddaşımda qalacaq. Hərbi hissənin ərazisinə daxil olanda hər tərəfi tər-təmiz, səliqə-sahmanlı gördük. Meydan göy, qırmızı, yaşıl bayraqlarla bəzədilmişdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin iri lövhələrdə həkk olunan Vətən, torpaq, ordu barədə kəlamları hər kəsin diqqətini çəkirdi. Artıq səhər saatlarından hərbi hissənin qapıları ziyarətçilərin üzünə açıq idi. Əsgər valideynləri və yaxınları, təhsil müəssisələrinin, rayon ictimaiyyətinin nümayəndələri, Qarabağ müharibəsi veteranları və digər qonaqlar yüksək bayram əhval-ruhiyyəsində "Açıq qapı" günü tədbirində iştirak etməyə gəlmişdilər.

Qardaşım və bacım oğlanları ilə birlikdə əsgər övladım Kənan Süleymanlının ziyarətinə gəlmişik. O, 6 aydır ki, hərbi xidmətdədir. Oğlum Azərbaycan Dövlət İqtisad Universitetinin məzunudur. Birinci "Açıq qapı" günü tədbirində də iştirak etmişdik. Hərbi hissədə yaradılan yüksək şəraitlə tanış olanda, oğlum sarıdan heç bir narahatlıq keçirmirəm. Ordumuzun bugünkü inkişafından qürur duyuram. Hər bir oğul Vətənə, torpağa müqəddəs borcunu verməlidir. Vətən üçün canından, qanından keçməyə hazır olmalıdır. Kənan ikinci övladımdır ki, doğma ordumuzun sıralarında hərbi xidmətdədir. Hər bir əsgərə Vətənə layiqincə xidmət etməyi, valideynlərinin yanına başıuca, alnıaçıq qayıtmağı arzulayıram.



**Oruc Əliyev** Yevlax rayonunun, Rüstəmli kənd sakinidir. Oğlu Ülvi hərbi xidmətdə nizam-intizamlı, çalışqan əsgər kimi tanınıb.

Orduda geniş islahatların həyata keçirildiyini deyən Rövşən Əliyev bildirdi ki, "Açıq qapı" günündə iştirak etməsi ürəyincədir. "Hərbi hissə ilə yaxından tanış olmaq imkanı qazandıq. Müdafiə naziri ilə birgə əsgər yataqxanalarına, yeməkxanaya baş çəkdik, övladlarımızla birgə nahar etdik. Bir daha gördük ki, dövlət öz əsgərinə necə qayğı, diqqət göstərir. İnanırıq ki, xalqla ordunun birliyi yeni uğurlara yol açacaq”.



**Nisə Qədirova** Dəvəçi rayonundan gəlib. Azərbaycan Jurnalistlər və Yazıçılar Birliyinin üzvüdür. Oğlu Şamil Vətən müdafiəçiləri sırasındadır. Övladının xidmətindən razılığını bildirən həmkarımıza görə qurucusu, ümummilli lider Heydər Əliyev olan Silahlı Qüvvələrimiz son illər yeni yüksəliş dövrünə qədəm qoyub. "Hazırda orduda quruculuq işləri onun layiqli varisi, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Uğurlu siyasətin bəhrəsidir ki, ordumuz müasir tələblər səviyyəsində qurularaq, regionun ən güclü, qüdrətli ordusuna çevrilib. Sevinirəm ki, övladım da bu ordunun əsgərləri sırasındadır".

**"Azərbaycan Ordusu"**

# Horadiz əməliyyatı hərb tariximizin ən parlaq səhifələrindəndir

***Azərbaycan Ordusunun 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə apardığı uğurlu əməliyyat nəticəsində Füzuli rayonunun 21 kəndi və Horadiz qəsəbəsi işğaldan azad olunub.***



AZƏRTAC xəbər verir ki, bu münasibətlə Horadiz şəhərindəki Heydər Əliyev adına parkda rayon ictimaiyyətinin, "N" hərbi hissəsinin şəxsi heyətinin, Qarabağ müharibəsi veteranlarının, Horadiz əməliyyatında iştirak etmiş keçmiş döyüşçülərin iştirakı ilə mərasim keçirilib. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsinə ehtiramlarını bildiriblər.

Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev çıxış edərək, 1990-cı illərin əvvəllərində yaranmış hərbi-siyasi vəziyyətdən, Ermənistanın Azərbaycana qarşı apardığı qəsbkarlıq müharibəsindən, Qarabağın dağlıq hissəsinin və ətraf ərazilərin, o cümlədən Füzuli rayonunun işğal edilməsindən danışıb.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ölkədə ordu quruculuğu sahəsində görülən işlər nəticəsində cəbhədəki vəziyyətdə dönüş yaranıb. 1994-cü ilin yanvarın əvvəllərində həyata keçirilən Horadiz əməliyyatı nəticəsində erməni silahlı birləşmələrinin Beyləqan istiqamətində hücumunun qarşısı alınıb və Azərbaycan Ordusu əks-hücuma keçərək qısa müddətdə 21 min hektar ərazini - Füzuli rayonunun 20 Arazboyu kəndini, Horadiz qəsəbəsini və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini işğaldan azad edib. Azərbaycan Ordusu bu uğura ulu öndər Heydər Əliyevin qətiyyəti, böyük sərkərdəlik məharəti, döyüş bölgəsinə gedərək hərbçilərdə ruh yüksəkliyi yaratması nəticəsində nail olub.

"Azərbaycan Bayrağı" ordenli Sevindik İsmayılov, Horadizə yenidən dövlət bayrağımızı sancan Şakir Bayramov və digərləri Qarabağ müharibəsi tarixində Horadiz əməliyyatının xüsusi yeri olduğunu vurğulayıblar. Bildirilib ki, Horadiz əməliyyatı hərb tariximizin ən parlaq səhifələrindən biridir. Məhz bu əməliyyat Azərbaycan Ordusunun nəyə qadir olduğunu əyani şəkildə göstərib.

Mərasimdə qeyd edilib ki, 1996-cı ildən Füzuli rayonunun işğaldan azad olunmuş ərazilərində infrastrukturun bərpasına başlanılıb. Bu dövrdə məcburi köçkünlər üçün 16 qəsəbə salınıb, təhsil, səhiyyə və mədəniyyət müəssisələri, yollar, körpülər, elektrik və suvarma sistemləri tikilib və bərpa olunub. Horadiz qəsəbəsinə şəhər statusu verilib, işğal nəticəsində dağıdılmış minlərlə ev bərpa edilib. Bu dövlət qayğısının, aparılan uğurlu sosial və iqtisadi siyasətin nəticəsidir ki, 70 minə yaxın əhali rayon ərazisinə qayıdıb.

Diqqətə çatdırılıb ki, təkcə son 12 ildə Prezident İlham Əliyev Füzuli rayonuna 5 dəfə səfər edib, rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair 6 sərəncam imzalayıb. Dövlətimizin başçısı 2014-cü il avqustun 28-də Füzuliyə sonuncu səfəri zamanı Horadiz şəhərində Bayraq meydanının, Boulinq zalının, tikiş fabrikinin, rayon icra hakimiyyətinin inzibati binasının, uşaq bağçasının, tarix-diyarşünaslıq muzeyinin, işğal dövrü yandırılmış və dağıdılmış 227 fərdi evin və kommunal yaşayış binasının, Qəhrəmanlar parkının, Əhmədalılar-Mollaməhərrəmli-Arayatlı-Babı kəndlərarası avtomobil yolunun açılışında iştirak edib. Dövlətin yüksək qayğısı ilə əhatə olunan Horadiz ölkənin ən gözəl, abad və müasir şəhərlərindən birinə çevrilib. Bu gün cəbhə bölgəsində yerləşən Füzulinin işğaldan azad olunmuş ərazilərində müharibənin dağıntılarından əsər-əlamət qalmayıb. Hər tərəfdə gözəlliyin, səliqə-sahmanın, inkişafın, insanların xoş günlərinin şahidi olmaq mümkündür.

Çıxışlarda Prezident İlham Əliyevin qətiyyəti sayəsində işğal altındakı bütün torpaqlarımızın, o cümlədən Füzuli rayonunun digər ərazilərinin də düşmən tapdağından azad olunacağına əminlik ifadə edilib.

*General Səməd bəy Mehmandarov - 160*

# Şuşalı Mehmandarovlar



***"Övladlarım, bütün gəncliyimi, gücümü rus ordusuna sərf etdim. Nə xoşbəxt insanam ki, ixtiyar yaşımda millətimin ordusunu yaratmaq mənə nəsib oldu".***

***Tam artilleriya generalı Səməd bəy Mehmandarov***

Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarov 1918-ci il dekabrın 24-də tarixi əhəmiyyətli bir əmr - hərbi salamlaşma haqqında əmr imzalayır. Əmrin mətnində bildirilirdi: "Sırada, eləcə də sıradan kənarda olarkən əsgərlərin azərbaycanca salamlaşması - bir sözlə "Salam" cavabı isə "Əleyküm salam" olmasını bütün zabitlərə əmr edirəm. Təltif zamanı əsgərə deyilməlidir: "Mərhəba", əsgər cavab verməlidir: "Çox sağ ol!"

Azərbaycanın sərkərdə oğlunun ordu rəhbərliyinə gəlməsini və xalqın dar günündə ona dayaq olmasını böyük sevinclə qarşılayan əsgərlər onun şəninə şeirlər yazıb, adını şərqilərdə əbədiləşdiriblər.

*Aslan ürəkli Səməd paşamız*
*Şanlı komandan, sənsən babamız*
*Sənə qurban olsun ata-anamız*
*Al bir düşməndən türkün qanını.*

Şərqilərdən aydın olur ki, xalq öz xilaskarına böyük məhəbbət bəsləyib və onu ordu sərkərdəsi, sərdarı kimi vəsf eləyib.

Hərbi nazir general S.Mehmandarov 1919-cu il aprelin 2-də Nazirlər Şurasına göndərdiyi məktubunda Azərbaycan xalqının şöhrətli hərb tarixinə malik olduğunu və bu qəhrəmanlıq tariximiz əsasında ordunun şəxsi heyətinin milli vətənpərvərlik ruhunda tərbiyəsinə başlanmasının vacibliyini göstərərək yazırdı: "...Yüz illik rus hökmranlığından azad olmuş türk xalqının yadına salmaq lazımdır ki, biz həmişə asılı vəziyyətdə olmamışıq".

Vətənin, torpağın azadlığını və müdafiəsini hər şeydən üstün tutan S.Mehmandarov Nazirlər Kabinetinin başçısı Nəsib bəy Yusifbəyliyə göndərdiyi rəsmi məktubunda bildirirdi ki, ingilis hərbi dəstələri Azərbaycanda olduqları hər yerdə talanlar edir, kəşfiyyat işi aparırlar. Səməd bəy etiraz əlaməti olaraq İngiltərə hökumətinin Birinci Dünya müharibəsi illərində ona verdiyi orden və medalları İngiltərə hökumətinə qaytarmağı Azərbaycan hökumətindən xahiş edir: "Torpağımı və xalqımı fəth edən ikiüzlü bir ölkənin ordeni mənə gərək deyil!"



S.Mehmandarov hərbi rəhbərliyə gəldiyi elə ilk vaxtdan qarşıya çıxacaq çətinlikləri aradan qaldırmaq məqsədilə verdiyi 1 saylı əmrində qeyd edirdi ki, vəzifələrimin icrasına başlayarkən mənim görməli olduğum o böyük işin bütün ciddiliyini, mürəkkəbliyini və çətinliyini yaxşı anlayıram. Ancaq bu iş görülməlidir və Hərbi Nazirliyin qarşısına çıxan bütün çətinlikləri birgə fəaliyyət və vəzifəyə təmiz münasibət bəsləndiyi halda aradan qaldırmaq mümkündür.

Döyüşən ordunun yaradılmasını qətiyyətlə bəyan edən təcrübəli ordu komandanı hamını birgə, səmimi fəaliyyətə dəvət etməklə bütün səviyyələrdə olan rəislərin əsas diqqətini qoşunlarda təlim və tərbiyəyə, şəxsi heyətə möhkəm intizamın aşılanmasına, işə məsuliyyət və məhəbbət hisslərinin, xidməti mülkiyyətə marağın oyadılmasına, qayda-qanuna riayət edilməsinə və nəhayət, tabelikdə olanlara qayğıkeş və mehriban münasibət göstərilməsinə çağırırdı. "Yalnız bu keyfiyyətlərin varlığı ordunun yaradılmasını, gənc respublika tərəfindən ona böyük xərclər çəkilməsini doğrulda bilər və belə bir ordunun yaradılması üçün mən heç bir çətinlikdən çəkinməyəcəyəm. Qoşunların bütün təminat və təchizatının vaxtında ödənilməsi mənim daimi diqqətim altında olacaqdır", - sərkərdə deyirdi.

1920-ci ilin Novruz bayramı günlərində Ermənistanın erməni daşnaklarından ibarət hərbi hissələri Xankəndi qarnizonuna hücum etsələr də, milli ordu qüvvələri bu hücumun qarşısını mərdliklə alır. Bu zaman erməni təcavüzkarları Qarabağa yeganə keçid olan Əsgəran qalasını ələ keçirirlər və Xankəndidə olan milli ordu hissələrini mühasirəyə alırlar. Mövcud şəraitə uyğun hərəkət etməyə məcbur olan Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi ölkənin şimalında yerləşdirilən Silahlı Qüvvələrin böyük bir hissəsini general Həbib bəy Səlimovun komandanlığı altında Qarabağa göndərmək məcburiyyətində qalır. Nəticədə, daşnak ordu hissələri və erməni qiyamçıları darmadağın edilərək yuxarı Qarabağ düşməndən azad edilir. Hərbi nazir general S.Mehmandarov bu qələbə münasibətilə Azərbaycan əsgərlərinə müraciətində deyirdi: "Qəhrəman əsgərlər! Mən şəxsən Almaniya cəbhəsində bir çox müharibələrdə olmuşam, fəqət sizin qədər qəhrəmanlıq göstərən əsgərlərə nadir halda təsadüf etmişəm. Siz mənim ümidlərimi qüvvətləndirdiniz. Siz qanınızla gənc Azərbaycan Ordusunun namusunu mühafizə etdiniz".

Aparılan tədqiqatlardan aydın olur ki, Şuşada böyük bir nəslin - zadəgan, bəy ailəsinin nümayəndəsi olan S.Mehmandarovun atası Sadıq bəy xidməti vəzifəsi ilə əlaqədar Lənkəran şəhərinə köçərək ömrünün sonunadək orada yaşayıb və 99 yaşında vəfat edib. Mehmandarovlar Şuşada, Qarabağda sayılıb seçilən əsilzadələrdən olub. Bu nəslin görkəmli nümayəndələrindən biri tanınmış cərrah, ictimai xadim Əbdülkərim Mehmandarov 1877-ci ildə Peterburq Tibb Cərrahlıq Akademiyasını bitirib və bütün ömrünü Azərbaycanda səhiyyənin inkişafına həsr edən maarifpərvər, ziyalı kimi ad-san qazanıb.

Erməni qəsbkarlarının işğalına qədər Mehmandarovlar nəslinin mülkü Şuşanın tarixi abidələri sırasında qorunub mühafizə olunub. Ötən əsrin 70-ci illərində S.Mehmandarovun babasına məxsus olan mülkdə xəstəxana, uşaq bağçası fəaliyyət göstərib.

1988-ci ildə isə bu yerdə Azərbaycan Xalça Muzeyinin Şuşa filialı açılır. Lakin çox keçmir ki, erməni quldurları gözəl Şuşamızı döyüş meydanına çevirir. Çətinliklə də olsa, muzeyin zəngin kolleksiyası xilas olunur. Amma Mehmandarovların mülkü Qarabağın digər qədim abidələri kimi hələ də düşmən tapdağındadır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Yaradılan şərait şəxsi heyətə ruh yüksəkliyi aşılayır



***Bu gün Azərbaycan Silahlı Qüvvələri regionun ən güclü ordusuna çevrilib. Fəxrlə deyə bilərik ki, Silahlı Qüvvələrimiz ölkəmizin inkişafını özündə ehtiva edərək bizə düşmən kəsilənləri qorxuya salıb. Əlahiddə Ümumqoşun Ordunun da maddi-texniki təminatı ilbəil təkmilləşdirilir, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılır. Dövlətimizin qayğısını daim öz üzərində hiss edən əsgər və zabitlərimiz torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanırlar.***

Son illər muxtar respublikamızın etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində yüzlərlə hərbi obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Təmas xətti boyu mövqelərini gücləndirən Əlahiddə Ümumqoşun Ordunun ucqar və çətin dağlıq şəraitində yerləşən hissə və bölmələrində möhkəm müdafiə potensialı yaradılıb.

Söhbət tikilib istifadəyə verilən hərbi obyektlərdən düşmüşkən qeyd edim ki, Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan şəhərindəki "N" hərbi hissəsində müasir tələblərə cavab verən yeni əsgər yataqxanası istifadəyə verilib. Bu xoş xəbəri eşidən kimi həmin hərbi hissəyə yollandım. Ünvana çatanda bir-birindən yaraşıqlı müasir binaları ilə göz oxşayan "N" hərbi hissəsinin gözəlliyinə heyranlığımı gizlədə bilmədim. Burada sanki bir şəhərcik salınıb. Bütün bunlar da onu deməyə əsas verir ki, ölkəmizdə əsgər adına verilən yüksək qiymət döyüşçülərimizin daha yaxşı xidmət aparmaları üçün yaradılan hərtərəfli şəraitdən bəllidir. İndi əsgərlərimiz ən müasir yataqxanalarda yaşayır, Vətənimizi göz bəbəyi tək qoruyurlar.



Hərbi hissədə mənə məlumat verdilər ki, yenicə istifadəyə verilmiş əsgər yataqxanası müasir tələblər səviyyəsində və milli memarlıq üslubunda tikilib. üçmərtəbəli bina 900 nəfərlikdir. Yataqxanada istirahət və yataq yerləri, zabitlər üçün iş otaqları, əsgərlər üçün məişət, silah və ideoloji otaqlar, sanitar qovşağı mövcuddur.

Əlahiddə Ümumqoşun Ordunun hissə və bölmələrində yaradılan yüksək səviyyəli xidmət şəraiti şəxsi heyətin mənəvi-psixoloji hazırlığına öz müsbət təsirini göstərməkdədir. Həmçinin keçirilən təlimlərdə tər tökərək daha da bərkiyən əsgərlərimiz real döyüşlərə də hazırdırlar. Bu fikirləri mənimlə həmsöhbət olan əsgərlərdən Cəlal Qənbərli, Təbriz Məşiyev, Tacəddin Xasıyev və başqaları da təsdiqlədilər. Həmsöhbətlərim qeyd etdilər ki, istifadəmizə verilən bu yataqxana bizim rahatlığımıza hesablanıb. "Ona görə də xidmətimiz yüksək səviyyədə qurulub. Qarlı-şaxtalı havalar belə bizim xidmətimizə mane ola bilməz. Çünki hərtərəfli istilik sistemi ilə tam təmin olunan bu hərbi hissədə özümüzü evimizdəki kimi hiss edirik. Buradan da valideynlərimizə salam göndərərək deyirik ki, bizdən nigaran qalmayın. Dövlətimiz bizə valideyn qayğısı ilə diqqət göstərir. Elə yeni əsgər yataqxanasının bizim istifadəmizə verilməsi bunun əyani sübutudur".

Bu gün "Bir nəfər hamı, hamı bir nəfər üçün!" şüarını əldə rəhbər tutan hərbi qulluqçularımız arasında möhkəm birlik formalaşıb. Əlbəttə ki, bu birliyi qoruyub inkişaf etdirmək hər birimizin vətəndaşlıq borcudur. Unutmayaq ki, güc birlikdədir.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

*Yeni kitablar*

# Azərbaycanın tarixinə həsr edilmiş dəyərli vəsait

***Erməni millətçi, şovinist dairələrin azərbaycanlılara, eləcə də türklərə qarşı zaman-zaman törətdiyi təxribat və fitnəkarlıqlara, qətliamlara ölkəmizdə uzun müddət yetərincə diqqət göstərilməyib, Sovet dönəmində tariximizdə ağ ləkələr çox olub. Xalqımız üçün olduqca ağrılı mövzunun kifayət qədər öyrənilməməsinin əsas səbəbi keçmiş Sovet dövrünün qadağaları idi. SSRİ rəhbərliyi türklərə və türkçülüyə düşmən mövqe tutan bədnam qonşularımıza geniş fəaliyyət imkanı yaratmışdı, azərbaycanlıların milli-etnik baxımdan bir sıra həssas məqamlara toxunması mahiyyət etibarilə yasaq idi. Ermənistanda millətçi əhval-ruhiyyəsinin qızışdırılmasında xüsusi rol oynamış Zori Balayanın "Ocaq" kitabı məhz Sovet dövründə işıq üzü görmüşdü.***




Azərbaycan müstəqillik əldə etdikdən sonra XIX əsrin sonu və XX yüzilliyin əvvəllərində baş vermiş tarixi hadisələr, erməni-azərbaycanlı münasibətləri, xalqımıza qarşı törədilmiş soyqırımı tarixçilərimiz tərəfindən əhatəli şəkildə araşdırılmağa başlandı və dəyərli əsərlər araya-ərsəyə gəldi.

Erməni-azərbaycanlı və erməni-türk münasibətlərini ardıcıl araşdıran tarixçilərimizdən biri də tanınmış alim və publisist Qafar Çaxmaqlıdır. Uzun müddət ölkənin kütləvi informasiya vasitələrində çalışmış, o cümlədən Sovet dövründə Bakıda erməni dilində nəşr edilmiş "Kommunist" qəzetində işləmiş müəllif bir çox kitabın, Azərbaycan və Türkiyənin qəzet və jurnallarında çap edilmiş çoxsaylı elmi-kütləvi məqalənin müəllifidir. Qərbi Azərbaycanın Şörəyel mahalının Çaxmaq kəndində dünyaya gəlmiş Qafar müəllim "Erməni məsələsi" ilə əlaqədar tarixi həqiqətlərin aşkarlanmasında mətbuatın rolu. 1890-1920-ci illər erməni və Türkiyə mətbuatının materialları əsasında" namizədlik dissertasiyasını müdafiə edərək siyasi elmlər üzrə fəlsəfə doktoru dərəcəsi alıb.

Vətənpərvər ziyalının "erməni məsələsi" ilə bağlı 2000-ci ildə "Qars adlı vətən", 2008-ci ildə"Erməni məsələsi: tarıxın izi ilə", 2011-ci ildə isə Azərbaycan və türk dillərində "Dağlıq Qarabağ: işğaldan sonra və əvvəl" kitabları işıq üzü görüb.

Qafar Çaxmaqlı həm də ictimai fəallığı ilə seçilən müəlliflərdəndir. Tədqiqatçı kimi beynəlxalq elmi konfranslarda müntəzəm çıxış edən alim erməni millətçi dairələrinin cinayətkar fəaliyyətini daim tarixi faktlara əsaslanaraq ifşa etməyə çalışır. 1999-cu ilin iyununda Türkiyənin Qars şəhərində, 2003-cü ilin mayında Bakıda, 2005-ci ildə Ankarada, 2007-ci ildə yenidən Bakıda elmi konfranslarda iştirak edib, 2010-cu ildə Belçika Parlamentində Dağlıq Qarabağ problemi ilə bağlı dialoqda Azərbaycanın ədalətli mövqeyini müdafiə edib.

Qafar müəllimin yaradıcılığında diqqəti çəkən əsas məqam erməni dilini bildiyi üçün araşdırmalar apararkən ilkin tarixi mənbələrə müraciət etməsidir. Çaxmaqlının bu yaxınlarda işıq üzü görmüş yeni araşdırmasında biz bunun bir daha şahidi oluruq. Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə ərsəyə gəlmiş "Ermənicə qaynaqlarda erməni cinayətləri" kitabı tariximizlə maraqlananlar üçün dəyərli vəsaitdir.

Araşdırmanın hansı məqsədlə aparılması barədə müəllif kitabın girişində yazır: "Ermənicə sənədlərin toplanması və kitablaşdırılaraq yayılması çox vacibdir. Bu, müasir dövrdə Ermənistanla ideoloji mübarizədə haqlı olduğumuzu müdafiə etmək baxımından son dərəcə əhəmiyyətlidir və əlimizdə hər zaman üstün arqument olacaqdır. Tədqiq edilən dövrdə fəaliyyətdə olan erməni siyasi və terror təşkilatları, xüsusən Erməni İnqilabçı Federasiyası-Daşnaksütyun, Hnçak və başqa qurumlar çalışırdılar ki, Şərqi Anadolunun, Kilikiyanın və Qafqazın bir çox bölgələrində ermənilərin say üstünlüyünə nail olsunlar və həmin ərazilərdə "erməni muxtariyyəti", "erməni dövləti" qurmaq mümkün olsun".

Daha çox erməni mətbuatına istinad edən müəllifin yazdığına görə, Azərbaycanın Zəngəzur bölgəsində törədilən qırğınların məqsədinin nədən ibarət olması o vaxt erməni qatı millətçi şovinistlərinin yazışmalarında öz əksini tapıb. Qafar Çaxmaqlının fikrincə, Qaregin Njdenin "Zəngəzur məktubları" bu məkrli məramı ortaya qoyan önəmli mənbələrdəndir. "Bu sənədlərdə Zəngəzurun və digər Azərbaycan ərazilərinin yerli sakinlərinin öz dədə-baba yurdlarından çıxarılması üçün qeyri-insani hərəkətlərə, vəhşiliklərə yol verməsinin qəsdən edildiyi üzə çıxır. Və yaxud Bakıdan üzü şimala-Rusiyaya doğru bütün ərazilərimizdə əhalinin kütləvi şəkildə məhv edilməsinin, buraların boşaldılmasının məqsədinin nə olduğu indi məlum olur".

Kitabdakılara nəzər yetirərkən müəllifin hansı önəmli mənbələrə müraciət etdiyi aydın görünür. Erməni dövlətinin yaradılması ilə bağlı planı gerçəkləşdirməyə çalışarkən qatı irqçi dairələr üçün bütün vasitələrin məqbul hesab edilməsi, ən ağır cinayətlərə, soyqırım və qətliamlara əl atılması açıq göstərilir. Qafar Çaxmaqlı maraqlı sənədlər araşdıraraq ermənilərin dəhşətli planlarını açıb ortaya qoyur. Bu baxımdan Azərbaycan xalqına qarşı törədilmiş cinayətlər, Zəngəzurda dinc əhalinin xüsusi amansızlıqla məhv edilməsi, ermənilərin iç üzünü açan məktublar, o cümlədən erməni faşizminin, "müstəsnalığının" banisi hesab edilən Qaregin Njdenin etiraflarının öz əksini tapması kitabın məziyyətlərindəndir.

Ümid edirik ki, Qafar Çaxmaqlının "Ermənicə qaynaqlarda erməni cinayətləri" kitabı oxucuların diqqətini çəkəcək və həssas Qafqaz bölgəsində ötən əsrin əvvəllərində baş vermiş bir çox hadisələrin obyektiv öyrənilməsində dəyərli vasitə olacaq.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 2
Nüsxə 4700